# "Sibir: Moment İstinı" qəzetinin xüsusi buraxılışı bütünlüklə Azərbaycana həsr edilib

"Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "2015-ci ilin adamı" mükafatına layiq görülüb". "Sibir: Moment İstinı" qəzetinin cari ilin 5 may tarixli sayındakı "Sodrujestvo" informasiya bülletenində dərc edilən ilk məqalənin sərlövhəsi belədir. Qeyd edək ki, bülleten bütünlüklə Azərbaycana, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunub.

Məqalədə qeyd olunur ki, ANS Şirkətlər Qrupu və Milli Qəhrəman Çingiz Mustafayev adına Fondun "İlin adamı" mükafatı ilə ən layiqli şəxsiyyət təltif olunub. Çünki Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi fond ölkə vətəndaşlarının ən ağır şəxsi problemlərlə müraciət etdiyi təşkilatdır. Cəmiyyətdə xeyriyyəçilik standartlarını müəyyən edən Mehriban Əliyevanın fəaliyyəti nəticəsində bir çox insanlar öz arzularını həyata keçirə biliblər.

Məqalədə, həmçinin deyilir ki, Mehriban Əliyevanın Təşkilat Komitəsinin sədri olduğu Birinci Avropa Oyunları yüksək səviyyədə təşkil edilib və Oyunları seyr edən hər kəs öz ölkəsi, öz Prezidenti, öz birinci xanımı üçün böyük qürur hissi duyub.

"Sibir: Moment İstinı" nəşri ölkənin birinci xanımının çıxışından


СИБИРЬ:
МОМЕНТ ИСТИНЫ
Мехрибан Алиевой вручена премия «Человек 2015 года»





sitat gətirir: "Heydər Əliyev Fondunun bir çox gözəl ənənələri var və onların arasında ən vacibi, hesab edirəm ki, xeyriyyəçilik ənənələridir və bu ənənələrə əsaslanaraq mənə verdiyiniz pul mükafatını Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinə keçirmək fikrindəyəm".

Öz çıxışında Mehriban Əliyeva bildirib ki, onun komandasının ən böyük nailiyyəti Azərbaycan xalqının hörmət və etibarını qazanmasıdır. İnsanlar öz məktublarında qeyd edirlər ki, Heydər Əliyev Fondu onların son ümid yeridir və fonda müraciət edərkən köməyin əsirgənməyəcəyinə şübhə etmirlər. Çünki burada onları dinləməyə və onların yanında olmağa çalışırlar.

Tahir Məmmədovun "Fövqəladə dərəcədə dəyərli ideyalar xəzinəsi" məqaləsində akademik Ramiz Mehdiyevin elmi-fəlsəfi baxışlarında ümummilli lider Heydər Əliyevin siyasi irsi və dövlət fəaliyyəti haqqında danışılır. Qeyd olunur ki, ümummilli liderimizin fəlsəfi fikirlərinin, ictimai-siyasi baxışlarının, elmi-nəzəri görüşlərinin hərtərəfli tədqiqində R.Mehdiyevin misilsiz xidmətləri var, Əliyevşünaslıq İnstitutunun təməlini məhz o qoyub.

Məqalədə deyilir: "Təsadüfi deyil ki, görkəmli alim-filosof müasir Azərbaycan fəlsəfəsi fikrinin aktual problemlərini şərh edərkən, ölkəmizdə Şərq fəlsəfə ənənələrinin dirçəlişini ön plana çəkib və müasir Qərb fəlsəfəsinə inteqrasiyanın fəlsəfi fikrin inkişafına yeni uğurlu təsir göstərəcəyini vurğulayıb".

Elə buradaca Olqa Kovalyovanın "Azərbaycanın dövlət və siyasi xadimi Ramiz Mehdiyev" məqaləsi verilib. Məqalədə müəllif qeyd edir: "Sakit, nəzakətli, yüksək təhsilli, savadlı və mütəşəkkil şəxs. Belə bir vəzifəni tutan və böyük idarəçilik təcrübəsinə malik insan başqa cür ola bilməz..." Olqa Kovaleva qeyd edir ki, mübaliğəsiz Ramiz Mehdiyev həm siyasətçi, həm də akademik kimi özünü doğruldub. Bunun ardınca izah edir: "Ramiz Mehdiyevin son elmi məqaləsi ikili standartlar qaydası və müasir Azərbaycanın bu qaydaya münasibəti haqqındadır. Bu dahiyanə məqalə müxtəlif elmlərin (tarix, fəlsəfə, beynəlxalq münasibətlər) nəzəriyyəsinə əvəzolunmaz töhfədir".

Müəllif sonda vurğulayır ki, Ramiz Mehdiyev görkəmli siyasətçi və alimdir, o, bu dünyanı daha yaxşı etmək üçün çalışır.

Nəşrdə "Tarixi uydurmaq və fikirləşmək lazım deyil..." sərlövhəli müsahibənin ardınca "Nina Qarsoyan: "Bütün qədim erməni mənbələri uydurmadır və digər xalqlar arasında seçilmək cəhdindən doğur" məqaləsi dərc edilib. İş burasındadır ki, bu məqalə qədim erməni salnamələrinə amansız zərbə vurub və inandırıcı şəkildə sübut edib ki, min beş yüz il ərzində Ermənistanda dövlətçilik və müstəqillik mövcud olmayıb, xristianlaşdırma tarixi, bütün qədim erməni salnamələri və sonrakı xronikalar saxtadır və digər xalqlar arasında seçilməyə xidmət edir. Necə deyərlər, şərhə ehtiyac yoxdur.

Müəyyən məntiqi ardıcıllığa əsasən, daha sonra akademik Ramiz Mehdiyevin Cənubi Qafqazda ilk dövlət quruluşlarının yaradılması tarixi dövrünü əhatə edən və regionun müasir dönəmə qədərki tarixindən bəhs edən "Dağlıq Qarabağ: Məxəzlərdən oxunmuş tarix" kitabı haqqında AZƏRTAC-ın materialı təqdim olunur. Məqalədə qeyd olunur ki, çoxsaylı antik, orta əsr mənbələri, eləcə də yeni dövr və müasir elmi sənədlər əsasında müəllif erməni (hay) etnik qrupunun Kiçik Asiyada, daha sonra isə Cənubi Qafqazda gəlmə olduğunu əsaslandırır.

Xüsusi buraxılış Qarabağla bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə tamamlanır.

**AZƏRTAC**